**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**BAKI BİZNES UNİVERSİTETİ**

# «Dövlət və bələdiyyə idarəetməsi» ixtisasının

# P A S P O R T U

**BAKI – 2019**

1. **Ümumi müddəalar**
2. **“Dövlət və bələdiyyə idarəetməsi” ixtisasının xarakteristikası**
   **2.1 Proqramın məqsədi**
3. **Məzunun ixtisas xarakteristikası və kompetensiyası (səlahiyyətləri)**
   **3.1** Bakalavrın ixtisas xarakteristikası
   **3.2** Proqramın mənimsənilməsi nəticəsində məzunun kompetensiyasına qoyulan tələblər
   **3.3** Məzun aşağıdakı ümummədəni kompetensiyalara yiyələnməlidir:
4. **Məzun aşağıdakı peşə kompetensiyalarına yiyələnməlidir:**
5. **Təhsilin məzmununa və səviyyəsinə qoyulan minimum tələblər**
   **5.1**.Peşə fəaliyyətinin əsas istiqamətləri:
   **5.2**.Peşə fəaliyyəti üzrə hazırlıq səviyyəsinə qoyulan tələblər
6. **İxtisas üzrə fənn bölümləri, onların mənimsənilməsinin nəticələri (bilik, bacarıq və vərdişlər baxımından) kompetensiyaları.**
   **6.1**. Humanitar fənlər bölümü
   **6.2**. İxtisas peşə hazırlığı fənləri bölümü
7. **Təcrübə və yekun attestasiya**
8. **Tələbənin təlim nəticələrinin qiymətləndirilməsi**
9. **Maddi-texniki, tədris bazası və kadr potensialı**
10. **Tədris prosesinin forma və metodları**
11. **Yekun dövlət attestasiyasına qoyulan tələblər və qiymətləndirmə**
12. **Tələbələrin elmi-tədqiqat işinin təşkili xüsusiyyətləri**
13. **Tədrisdə Keyfiyyət Qiymətləndirilməsi Sistemi**

**“Dövlət və bələdiyyə idarəetməsi” ixtisası üzrə**

**Təhsil proqramı**

## 1. Ümumi müddəalar

**1.1**. Bakalavriat səviyyəsinin “Dövlət və bələdiyyə idarəetməsi” ixtisası üzrə Təhsil Proqramı «Təhsil haqqında» Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin müvafiq qərarları ilə təsdiq olunmuş «Ali təhsil pilləsinin dövlət standartı və proqramı»na, **“Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kualifikasiyalar çərçivəsi”,** «Bakalavriat təhsilinin məzmunu və təşkili Qaydaları»nın tələblərinə və «Ali təhsilin bakalavriat səviyyəsi üzrə ixtisasların Təsnifatı»na uyğun hazırlanmışdır.

**Təhsil proqramı " Dövlət və bələdiyyə idarəetməsi " ixtisası üzrə məzun hazırlamaq prosesinin məqsədlərini, məzmununu və metodlarını müəyyən edən normativ sənədlər toplusudur.**

**1.2.** İxtisas üzrə Təhsil Proqramı tabeliyindən, mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq Azərbaycan Respublikasında fəaliyyət göstərən və həmin ixtisas üzrə bakalavr hazırlığını həyata keçirən bütün ali təhsil müəssisələri üçün məcburidir.

## 2. “Dövlət və bələdiyyə idarəetməsi” ixtisasının xarakteristikası.

| İxtisasın adı | Verilən elmi ixtisas dərəcəsi | Əyani forma üzrə təhsil müddəti | Kreditlərin sayı |
|---|---|---|---|
| Dövlət və bələdiyyə idarəetməsi | Bakalavr | 4 il | 240 |

**2.1.Proqramın məqsədi:**

**Təşkilati-hüquqi formasından asılı olmayaraq müəssisələrin təşkili və idarə edilməsi üzrə ixtisaslı kadr hazırlamaq.**

**“Dövlət və bələdiyyə idarəetməsi” üzrə nəzəri və praktiki biliklər vermək.**

**“Dövlət və bələdiyyə idarəetməsi” üzrə riyazi-iqtisadi təhlillər aparmaq vərdişlərini əldə etmək.**

**İdarəçilik sahəsində problemlərə yaradıcı yanaşmaq bacarığına malik olmaq.**

**2.2. Təhsil proqramının tərkibinə tədris planı, təqvim tematik planlar, fənlərin tədris-metodiki vəsaitləri, təlim və istehsalat təcrübələri, tələbələr üçün təhsilin və tədrisin keyfiyyətini təmin edən materiallar, təlimin keyfiyyətinə nəzarət qaydasını və məzmununu müəyyənləşdirən, müvafiq təhsil texnologiyasının tətbiq olunmasını təmin edən metodik materiallar və bir sıra normativ sənədlər də daxildir.**

## 3.Məzunun ixtisas xarakteristikası və kompetensiyası (səlahiyyətləri)

### 3.1.Bakalavrın ixtisas xarakteristikası

Bakalavr:

- fundamental və peşə hazırlığına uyğun olaraq ixtisası üzrə iş sahələrində peşə fəaliyyəti ilə məşğul olmaq, eləcə də ixtisası üzrə magistraturada təhsil almaq hüququna malikdir;
- mülkiyyət formasından və tabeliyindən asılı olmayaraq peşəsinə və ixtisas dərəcəsinə uyğun gələn nazirliklər və komitələr, biznes və sahibkarlıq fəaliyyəti ilə məşğul olan təsərrüfat subyektlərində, müəssisələr və şirkətlərin müvafiq idarəetmə strukturlarında işləyə bilər;
- mövcud qaydalara riayət olunmaqla müxtəlif təhsil müəssisələrində (ali məktəbdə elmi, elmi-pedaqoji fəaliyyət sahələri istisna olmaqla) çalışa bilər;
- təhsil aldıqları ixtisas üzrə qazanılmış bilik və bacarığını əmək fəaliyyətinin müxtəlif sahələrində tətbiq etməyi bacarmalıdır;
- onlardan fəaliyyətin müxtəlif sahələrində istifadə etməyi, sosial əhəmiyyət məsələləri və prosesləri araşdırmağı bacarmalıdır;
- təhsil proqramına uyğun tədris olunan fənlər üzrə müvafiq hazırlığa malik olmalı, qazanılmış nəzəri bilikləri təcrübədə tətbiq etməyi bacarmalıdır;

- əmək fəaliyyətində ixtisasa dair məsələləri həll etmək bacarığına malik olmalıdır;
- peşə fəaliyyətində qarşıya çıxan məsələləri optimal həlletmə qabiliyyətinə malik olmalıdır;
- əmək fəaliyyətində informasiya və kommunikasiya texnologiyalarından istifadə etməyi bacarmalıdır.

**3.2. Proqramın mənimsənilməsi nəticəsində məzunun kompetensiyasına qoyulan tələblər**

**Məzun humanitar və ixtisasın peşə hazırlığı bölümünə aid olan fənlər üzrə biliklərə malik olmalıdır.**

**3.3 Məzun aşağıdakı ümummədəni kompetensiyalara yiyələnməlidir:**

- kollektivdə öz həmkarları ilə işləməli, müasir tələbləri və şəraitə uyğunlaşmalıdır;
- işgüzar münasibətlərin qurulması zamanı kommunikativ əlaqələrin (qarşılıqlı münasibətlərin) qurulmasına hazır olmalıdır;
- hüquqi biliklərə və etik normalara malik olmalıdır;
- yenilikçilik təşəbbüsünə malik olmalı və əsaslandırılmış yeni ideyalar irəli sürməlidir;
- dövlət dilində sərbəst danışmaq və yazmaq, o cümlədən işgüzar yazışma vərdişlərinə malik olmaq, peşə təyinatlı mətnləri tərtib etməyi və onları redaktə etməyi bacarmaq;
- tərəfdaşları ilə xarici dildə ünsiyyətdə olmağı və fikrini ifadə etməyi bacarmalıdır;
- informasiya cəmiyyətində yaşayıb fəaliyyət göstərməyi və peşəkarlıq fəaliyyətində İKT-dən istifadə etməyi bacarmalıdır;
- idarəetmə məqsədləri üçün faydalı informasiyanı qəbul etmək, araşdırmaq, ümumiləşdirmək və strateji hədəfləri düzgün müəyyən etməyi;
- sosial-iqtisadi, siyasi və ekoloji problemlərin mahiyyətini anlamalıdır;
- analitik təhlil, ümumiləşdirmə, hesabat və digər məlumat mənbələrində əks etdirilmiş informasiyanın qiymətləndirilməsi metodikasını mənimsəməlidir;

- yazılı və şifahi nitqdə fikrini məntiqə uyğun, dəlillər gətirməklə düzgün və yığcam ifadə etmək, publik və elmi nitq vərdişlərinə malik olmaq, yürüdülən mühakimələrin və mülahizələrin məntiqiliyini təhlil etməyi;
- müasir tələblərə uyğun təqdimatlar hazırlamağı bacarmalıdır;
- Azərbaycan tarixi barədə elmi təsəvvürə, tarixi şəxsiyyətlər və əsas tarixi hadisələr haqqında məlumata malik olmaq, tarixi keçmişin qiymətləndirilməsinə dair öz mövqeyini əsaslandırmağı və fikrini ifadə etməyi bacarmalıdır;
- öz fəaliyyətində qanunvericilik bazasından istifadə etməyi bacarmalıdır;
- məsuliyyətini dərk etmək, demokratiya prinsiplərinə və xalqının milli ənənələrinə hörmət etməli, azərbaycançılıq ideyalarına sadiq olmalıdır;
- ümumiləşdirmələrə, təhlilə, informasiyanı qavramağa, qarşıda məqsəd qoymağa və ona nail olma yollarını seçməyi bacarmaq;

**4. Məzun aşağıdakı peşə kompetensiyalarına yiyələnməlidir:**

- fəaliyyət sahəsinə aid olan, peşəsinə və ixtisas dərəcinə uyğun gələn istənilən idarə etmə sahələrində, təşkilatlarda, idarələrdə, müəssisələrdə, şirkətlərdə və s. işləməyi bacarmaq, sahibkarlıq fəaliyyətinin əsasları və peşəkarlıq səviyyəsində sahibkarların xüsusiyyətlərini bilməli və idarəetmə məqsədləri üçün konkret nəticə çıxarmağı;
- peşə fəaliyyətində İKT-dən istifadə etməyi;
- ixtisasla bağlı anlayışların mənasını bilməyi;
- qarşıya müəyyən vəzifələr qoymağı, onların həll etməkdə müvafiq metodları seçməyi və tətbiq etməyi bacarmalı;
- qazanılmış bilik, bacarıq və vərdişlərə uyğun olaraq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada ölkənin iqtisadi və sosial siyasətini həyata keçirən dövlət strukturlarının müvafiq bölmələrində, ictimai əhəmiyyətli qurum və şirkətlərdə, xarici iqtisadi fəaliyyətlə məşğul olan şirkətlərdə və digər idarəetmə strukturlarında, idarəetmə formasından asılı olmayaraq istehsal və qeyri istehsal sferasında fəaliyyət göstərən kommersiya təşkilatlarında, ölkənin idarəetmə siyasətini həyata keçirən

orqanlarda və onların yerlərdəki müvafiq bölmələrində kompleks məsələlərin və problemlərin həllində iştirak etməyə hazır olmalı;

- istehsal fəaliyyətinin növünün və xarakterinin dəyişməsinə psixoloji və praktiki cəhətdən hazır olmalı və konkret layihələrdə işləməyi bacarmalı;
- kollektivdə öz həmkarları ilə birgə işləməyi, optimal qərarlar qəbul etməyi bacarmaq, idarəetmə metodlarına yiyələnməli;
- öz ixtisasının mahiyyətini, sosial əhəmiyyətini və konkret fəaliyyət sahəsinə aid fənlərin əsas problemlərini dərk etməli, onların kokret tətbiqi sahələrini bilməli;
- sağlamlığın qorunması və möhkəmləndirilməsində, sağlam həyat tərzi formalaşmasında, mənəvi və iradi keyfiyyətlərin tərbiyə olunmasında fiziki hazırlığın rolunun, vətənin müdafiəsində fiziki imkanların, əmtəə və işə düzgün münasibətin tərbiyə edilməsində idman və bədən tərbiyəsi amillərinin mahiyyətini dərk etməlidir;
- sülh və müharibə dövründə yaranan fövqaladə halların növlərini, mülki müdafiə orqanının təşkilini, onun əsas qüvvələri və vəzifələrini, kütləvi qırğın silahlarından fərdi və kollektiv mühafizə tədbirlərini bilməli, xilasetmə və digər təxirəsalınmaz işlərin görülməsini, insanların və avadanlıqların radioaktiv və kimyəvi çirklənməsinin zərərləşdirilməsini bacarmalıdır.

## 5.Təhsilin məzmununa və səviyyəsinə qoyulan minimum tələblər

## Peşə fəaliyyətinin xarakteristikası

### 5.1. Peşə fəaliyyətinin əsas istiqamətləri:

**“Dövlət və bələdiyyə idarəetməsi”** ixtisası üzrə bakalavrın peşə fəaliyyətinin əsas istiqamətləri:

- istehsalat-peşə fəaliyyəti;
- **təşkilati-idarəçilik fəaliyyəti;**
- təşkilati-inzibatçılıq fəaliyyəti.

**5.2. Peşə fəaliyyəti üzrə hazırlıq səviyyəsinə qoyulan tələblər**

***istehsalat-peşə fəaliyyəti üzrə ;***

- ixtisası üzrə qazanılmış biliklərdən istifadə etmək;
- informasiyanın toplanılması və emalında müasir üsullardan istifadə etmək;
- ixtisas sahəsinin əsas problemlərini dərk etmək, onların konkret tətbiq sahələrini bilmək;
- peşə fəaliyyəti dairəsinə aid olan məlumatların işlənilməsi və saxlanılmasında İKT-dən istifadə etmək.

***təşkilati-idarəçilik fəaliyyəti üzrə;***

- **ixtisası üzrə idarəetmənin əsaslarını və qanunauyğunluqlarını bilməli;**
- **idarəçiliyin nəzəri məsələlərinə yiyələnməli;**
- **idarəetmə metodlarını tətbiq etməyi və tənzimləməyi bilməli.**

***təşkilati-inzibatçılıq fəaliyyəti üzrə.***

- iqtisadiyyatin konkret sahəsinə aid problemlərin sistemləşdirilməsi və həll olunması məqsədi ilə elmi-praktik seminarlar və müzakirələr təşkil etmək;
- fəaliyyətin nəticələrini proqnozlaşdırmaq üçün elmi yenilikləri tətbiq etmək;
- qazanılmış bilik, bacarıq və vərdişlərə uyğun olaraq iqtisadiyyatın bütün sferalarında kompleks və problem xarakterli məsələlərin həllində iştirak etməyə hazır olmaq;
- kollektivdə öz həmkarları ilə birgə işləməyi, optimal qərarlar qəbul etməyi bacarmaq, idarəetmə və onun metodlarına yiyələnmək.
- **idarəetmədə xarici və ölkə təcrübəsini bilməli.**

**6. İxtisas üzrə fənn bölümləri, onların mənimsənilməsinin nəticələri (bilik, bacarıq və vərdişlər baxımından) kompetensiyaları.**

**<u>6.1 Humanitar fənlər bölümü</u>**

Bu bölümə daxil olan fənlərin öyrənilməsi nəticəsində bakalavr **bilməlidir:**

- Azərbaycan xalqının və dövlətinin tarixini, azadlıq, demokratiya və müstəqillik yolunda qazandığı nailiyyətləri;

- ixtisasa aid xarici dildə olan ədəbiyyatı oxuyub başa düşməyi;
- **idarəetmə sahəsində zəruri təcrübi vərdişlərə yiyələnməyi, informasiya toplamağı və işləməyi bilməli;**
- cəmiyyətin ümumi qanunauyğunluqlarını, hüquqi bilikləri, demokratiyanın əsas prinsiplərini, beynalxalq prosesləri;

**Humanitar və sosial-iqtisadi fənlərin əsas istiqamət və konpetensiyalarını.**
**Bakalavr bacarmalidir:**

- ixtisasa aid xarici dildə ədəbiyyatı lüğətlə tərcümə etməyi, annotasiya, referat, tezis, tərcümeyi-hal və s. yazmağı;
- cəmiyyətdə baş verən prosesləri təhlil etməyi.

**Bakalavr yiyələnməlidir:**

- Azərbaycan tarixindən vətənpərvərlik tərbiyəsində istifadəyə;
- xarici dildə olan ixtisasa uyğun materiallardan istifadəyə;
- Azərbaycan tarixinin əsas mərhələləri və xronologiyası barədə elmi təsəvvürə, tarixi şəxsiyyətlər və əsas tarixi hadisələr haqqında məlumata malik olmalı, tarixi keçmişin qiymətləndirilməsinə dair öz mövqeyini əsaslandırmağı və fikrini ifadə etməyi;
- Azərbaycan Respublikasının dövlət dilini sərbəst bilməli, onun imkanlarından peşə fəaliyyətində istifadə etməyi;
- xarici dillərin birində danışığın və yazının məzmununu başa düşməli, peşə səviyyəsinin artırılmasında mühüm əhəmiyyət kəsb edən və xarici dillərdə olan ədəbiyyat və mənbələrdən sərbəst istifadə etməyi;
- seçmə yolu ilə öyrənilməsi nəzərdə tutulan fənləri dinləməklə:
- sosial mühit və sosial vərəsəlik münasibətlərini bilməli, sosial təcrübələrin toplanılması, saxlanılması və ötürülməsi haqqında təsəvvürlərə malik olmalı, milli və mədəni-tarixi faktorların təhsil və tərbiyədə rolunu;
- sosial davranış formaları və qanunauyğunluqlarını bilməli, sosial qruplaşma və topluların yaranma səbəbləri və mənşəyi, sosial proseslərin növlərini və nəticələrini;

- mədəniyyətin forma və növləri haqqında məlumatı olmalı, dünyanın əsas mədəni-tarixi mərkəzləri olmuş regionları tanımalı, Azərbaycan mədəniyyətini və onun dünya mədəniyyəti və sivilizasiyasında tutduğu yeri qiymətləndirməyi, cəmiyyət və mədəniyyət barədə dialoqlarda iştirak etməyi;
- Azərbaycan Respublikası hüquqi sisteminin və qanunvericiliyinin əsaslarını bilməli, hüquq-mühafizə və digər hüquqi tətbiq qanunlarını, tərbiyəvi-etik normaları;
- gələcək peşə fəaliyyətlərinə dair normativ və hüquqi sənədlərin tərtibini və onlardan istifadə etməyi bacarmalı, pozulmuş hüquqların bərpa yollarını bilməlidir və s.

### 6.2. İxtisas peşə hazırlığı fənləri bölümü

Bu bölümə daxil olan fənlərin öyrənilməsi nəticəsində bakalavr **bilməlidir**:

- **Riyaziyyatın müasir şəraitdə yeri və rolunu, iqtisadiyyatda informasiyanın toplanmasını, işlənməsinin əsasları haqqında biliklərə malik olmağı, təhlil məsələlərini və s.**
- İqtisadi inkişafın nəzəri əsaslarını, **ümumi qanunauyğunluqlarını;**
- İqtisadi inkişafın **dair əsas anlayışları;**
- İqtisadi inkişafın **sistemini, sosial-iqtisadi inkişafın proqnozlaşdırılmasını, idarəetmə prosesinin təşkili proseslərini;**
- dövlət və bələdiyyə səviyyəsində işgüzar təşkilatları idarə etməyi;
- İqtisadi inkişafın funksiyalarını, prinsiplərini və metodlarını;
- **İqtisadi inkişafın idarə edilməsinin nəzəri və təcrübi məsələlərini;**
- İqtisadi inkişafın təmin edilməsinin təşkilati quruluş formalarını;
- **İqtisadi inkişafın problemlərini və struktur islahatlarını;**
- Idarə etmə üzrə mütəxəssislərin qarşısına qoyulan tələbləri və müasir keyfiyyətləri;
- Işgüzar təşkilatların məqsədlərinə çatmaq üçün istifadə olunan metodlarına;

- Təşkilatın insan resurslarından səmərəli istifadə etməyin və kollektivdən əlverişli sosial-psixoloji mühit yaratmağa;

İxtisas peşə nəticələri üzrə məzun aşağıdakı **bacarmalıdır:**

- **inkişafın sosial-iqtisadi göstəricilərini, onları təhlil etməyi.**
- **qanunvericilik bazasında istifadə etməklə** səmərəli təşkilat yaratmağı;
- insanlara təsir göstərməyi və onlara nümunə olmağı;
- **informativ materiallardan istifadə etməyi;**
- formal və qeyri formal liderlik keyfiyyətləri göstərməyi;
- müəyyənlik və qeyri-müəyyənlik şəraitində optimal idarəetmə qərarları qəbul etməyi;
- münaqişəli situasiyaların qarşısını vaxtında almağı və onları həll etməyi;
- **innovativ yanaşma tələb olunan şəraitdə fəaliyyət göstərməyi;**
- **peşə fəaliyyətində İKT-dən istifadə etməyi;**

**Müəssisə və təşkilatın fəaliyyətini SWOT təhlil etməyi**

- işgüzar təşkilatların strategiyasını müəyyən etməyi;
- idarəetmə münasibətlərini formalaşdıran və tənzimləyən idarəetmə prinsiplərini və dəyərlərini araşdırmağa;
- **idarəetmə istiqamətində sosial-iqtisadi tədqiqat aparılmasını təşkil etməyi;**
- təşkilatın daxili və xarici mühit amilləri arasında qarşılıqlı dinamikanın və münasibətləri müəyyənləşdirməyi.

**7.Təcrübə və yekun attestasiya**

Mülkiyyət formasından və tabeliyindən asılı olmayaraq peşəsinə və ixtisas dərəcəsinə uyğun gələn nazirliklər və komitələr, biznes və sahibkarlıq fəaliyyəti ilə məşğul olan təsərrüfat subyektlərində, müəssisələr və şirkətlərin müvafiq strukturlarında beynalxalq təşkilatlarda, maliyyə, turizm və digər xidmətlər üzrə dünya bazarlarında fəaliyyət göstərən transmilli şirkətlərdə Təcrübələr daha dərindən öyrənilməsi məqsədi ilə təşkil edilməlidir.

Bu bölümə aid onların öyrənilməsi nəticəsində təhsilalan **bilməlidir:**

- sosial-iqtisadi inkişafın əsas prinsiplərinin mahiyyətini, qanun və qanunauyğunluqlarını, dövlət və bələdiyyə qurumların fəaliyyətinin tənzimlənməsi məsələlərini, ayı-ayrı təsərrüfat strukturlarını, iqtisadi siyasətin prinsiplərinin elmi-praktiki məsələlərini, **cəmiyyət və ətraf mühitlə bağlı problemlərini həll etməyi;**

**bacarmalıdır**:

- əldə etdiyi biliklərin nəticəsində idarəetmə proseslərinə sərbəst olaraq strateji planın hazırlanmasını, kadrların yerləşdirilməsini;
- dövlət, regional və yerli səviyyədə idarə etmə mexanizminin tətbiqini təmin etməyi;

**yiyələnməlidir**:

- davamlı inkişaf konsepsiyasının nəzəri-praktiki məsələlərinə, idarəçilik keyfiyyətlərinə, təşkilatçılıq bacarığına, ieararxiyalıq və qarşılıqlı əlaqə prinsiplərinə, obyektiv kollegiallıq qərarlarının işlənib hazırlanmasına.

## 8.Tələbənin təlim nəticələrinin qiymətləndirilməsi

**Tələbələrin semestr ərzində hər bir fənn üzrə auditoriya (mühazirə, seminar, praktik məşğələlər, laboratoriya, kollokviumlar) və auditoriyadankənar (tələbənin müstəqil və müəllimin rəhbərliyi ilə sərbəst işi) fəaliyyəti aşağıdakı meyarlar üzrə qiymətləndirilır.**

**8.1. Mühazirə dərslərində iştirakına və cari mövzu üzrə aparılan qeydlərinə görə 0-10 bal.**

**8.2. Seminar (məşğələ) və ya laboratoriya dərslərində frontal şifahi sorğuların, kollokviumların, seminar-məşğələ dərslərinə hazırlığa dair tərtib etdiyi sərbəst işin tərtibi üzrə yekun cavab nəticələrinə görə 0-20 bal.**

**8.3. Referatın tərtibi və prezentasiyaya görə 0-20 bal.**

**Yuxarıda qeyd olunan qiymətləndirmələr fənn jurnallarında aparılır. Konkret fənlər üzrə semestr ərzində toplanmış balın yekun miqdarına görə təhsilalanların biliyi aşağıdakı kimi qiymətləndirilir:**

| | | |
|---|---|---|
| **51 bala qədər** | **• qeyri-kafi”** | **• F** |
| **51-60 bal** | **• “qənaətbəxş”** | **• E** |
| **61-70 bal** | **• “kafi”** | **• D** |
| **71-80 bal** | **• “yaxşı”** | **• C** |
| **81-90 bal** | **• “çox yaxşı”** | **• B** |
| **91-100 bal** | **• “əla”** | **• A** |

## 9. Maddi-texniki, tədris bazası və kadr potensialı

**9.1.** Ali təhsil müəssisəsinin **“Dövlət və bələdiyyə idarəetməsi”** ixtisasının təhsil proqramına müvafiq hazırlanmış tədris planında nəzərdə tutulan fənlər üzrə dərslərin aparılması, təcrübələrin keçirilməsi və elmi-tədqiqat işlərinin yerinə yetirilməsi üçün müvafiq İKT ilə təchiz olunmuş kabinet və laboratoriyalar, kompüter sinifləri, emalatxanalar və s. ilə təmin olunmuş maddi-texniki bazası olmalıdır. Təhsilalanların ali təhsil müəssisəsinin lokal şəbəkəsinə, internetə, məlumat bazalarına, elektron kitabxanalarına, axtarış sistemlərinə çıxışı təmin edilməlidir.

**9.2.** Fənlərin tədrisi, bir qayda olaraq, elmi dərəcəsi və ya elmi adı olan ali təhsil müəssisələrinin professor-müəllim heyəti tərəfindən aparılır. Bu fəaliyyətə həmin şərtləri ödəyən digər müəssisə və təşkilatlarda çalışan şəxslərdə cəlb oluna bilər.

## 10. Tədris prosesinin forma və metodları

**10.1.** Bakalavr hazırlığı mühazirə, məşğələ (laboratoriya), seminar, məsləhət, sərbəst iş, təcrübə və s. formalarda həyata keçirilir.

**10.2.** Bakalavr hazırlığı üzrə tədris prosesində şifahi şərh, müsahibə, interaktiv təlim, müstəqil iş, diskursiya, dəyirmi masa, illüstrasiya, tədqiqatçılıq, laboratoriya və praktik iş və digər metodlardan istifadə edilə bilər.

**10.3.** **“Dövlət və bələdiyyə idarəetməsi”** ixtisası üzrə bakalavr hazırlığında istehsalat və pedoqoji təcrübələr ( təcrübələrin məqsəd və vəzifələri ixtisasdan asılı

olaraq müəyyənləşdirilir) nəzərdə tutulur. Təcrübələr növündən asılı olaraq müvafiq idarə və təşkilatlarda, məktəblərdə və s. keçirilə bilər.

## 11.Yekun dövlət attestasiyasına qoyulan tələblər və qiymətləndirmə

11.1. Bakalavriat səviyyəsində ixtisaslar üzrə təhsil proqramları təhsilalanların dövlət attestasiyası ilə yekunkaşır.

11.2. Tədris planının bütün şərtlərini yerinə yetirmiş, o cümlədən nəzərdə tutulmuş cari attestasiyalardan (fənlər üzrə attestasiyalarda) müvəffəqiyyətlə keçmiş tələbələr yekun attestasiyaya buraxılırlar.

11.3. Yekun attestasiya bütün təhsilalanlar üçün məcburidir, onun hazırlanmasına və təşkilinə ayrılan müddət 6 həftədir.

11.4. Yekun attestasiya ixtisas üzrə buraxılış yekun dövlət imtahanı (fənlərarası) və ya buraxılış işinin müdafiəsindən ibarətdir.

11.5. Bakalavriat səviyyəsində tələbələrin topladığı kreditlərin sayı 240 olmalıdır. Ixtisaslar üzrə təhsil proqramlarında nəzərdə tutulmuş kreditləri toplayan tələbə həmin proqramı mənimsəmiş hesab edilir. Ali təhsil müəssisələrində bakalavriat səviyyəsinin təhsil proqramı üzrə tədris planını tam yerinə yetirmiş şəxslərə yekun Dövlət Attestasiya Komissiyasının qərarı əsasında "bakalavr" ali peşə-ixtisas dərəcəsi verilir.

11.6. Yekun attestasiyanın təşkili və keçirilməsi qaydaları Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən müəyyənləşdirilir.

## 12. Tələbələrin elmi-tədqiqat işinin təşkili xüsusiyyətləri

**Tələbələrin tədqiqat işləri vahid tədris prosesinin tərkib hissəsi kimi ixtisaslı mütəxəssislərin hazırlanmasının ayrılmaz hissəsidir: Tələbələrin elmi-tədqiqat işinin tətbiqi tədris, elmi və praktiki fəaliyyətin məcmusunu əks etdirir.**

**Tələbələrin tədqiqat işləri tədris planına uyğun olaraq tələbələr tərəfindən tədris prosesində və auditoriyadan kənar peşə və yaradıcılıq fəaliyyətinin əsaslarını, tədqiqatçılıq texnikasını və bacarıqlarını inkişaf etdirmək yolu ilə mütəxəssislərin hazırlıq səviyyəsini artırmaq məqsədi ilə təşkil edilir.**

**Tələbələrin tədqiqatçılıq fəaliyyətinin inkişafı aşağıdakı nəticələrin əldə edilməsinə gətirib çıxaracaqdır.**

**1) öyrənilən fənlərin nəzəri əsasları sahəsində tələbələrin biliklərini genişləndirmək və dərinləşdirmək, müstəqil tədqiqat fəaliyyətinin müəyyən praktik bacarıqlarını əldə etmək və inkişaf etdirmək;**

**2) elm və təcrübənin qarşıya qoyduğu aktual problemləri həll etmək üçün tələbələrin iştirakı ilə elmi tədqiqatlar aparmaq;**

**3) öz elmi tədqiqatlarının nəticələrini (hesabatlar, tezislər, məruzələr və s.) əsaslandırmaq və təqdim etmə bacarıqlarını inkişaf etdirmək;**

**4) elmi-tədqiqat işləri zamanı yeni informasiya texnologiyalarını geniş tətbiq etmək, informasiya və proqram təminatını dəstəkləmək bacarıqlarına malik olmaq;**

**5) iqtisadi inkişafın yeni şəraitində fərdi düşüncə sistemlərini formalaşdırmaq və fərdi işləmək bacarığına malik olmaq.**

## 12. Tədrisdə Keyfiyyət Qiymətləndirilməsi Sistemi

**Təlimin keyfiyyət təminatı sisteminə mütəxəssis hazırlığı prosesində təlim keyfiyyətinin monitorinqi, məzunların peşə fəaliyyətinin nəticələrinin izlənməsi daxildir.**

**Tələbə hazırlığının təlim keyfiyyətinin qiymətləndirilməsi aşağıdakı sxemə əsasən aparılır:**

**- cari və aralıq qiymətləndirmə,**

**- təcrübələrin nəticələrinin attestasiyası,**

**- yekun dövlət attestasiyası.**